1_Layout 1 29.03.2022 18:07 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

İlham ƏLİYEV

DİN DAXİLİ QOŞUNLAR

ƏSGƏR

№ 7 (621)

31 mart 2022-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# Diktəni yalnız Müzəffər Komandan edir

**"Azərbaycan" qəzetinin müxbiri Rəşad Baxşəliyevin müəllifi olduğu "Diktəni yalnız Müzəffər Komandan edir" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.**

### İlham Əliyevin sülh danışıqları üçün təklif etdiyi 5 maddəlik baza prinsipi Ermənistan üçün son şansdır

* Dövlətlərin bir-birilərinin suverenliyinin, ərazi bütövlüyünün, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması;

* Dövlətlərin bir-birilərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi;

* Dövlətlərarası münasibətlərdə bir-birilərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək;

* Dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması;

* Nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması.



İkinci Qarabağ savaşının qalib Komandanı İlham Əliyevin Ermənistana sülh danışıqlarına başlanılması üçün göndərdiyi 5 şərtdən ibarət baza prinsipi məğlub ölkəni təşvişə salıb. Çünki Azərbaycan bəyan edib ki, yalnız bu şərtlərin yerinə yetiriləcəyi təqdirdə sülh müqaviləsi imzalana bilər. Yəni Azərbaycan Prezidentinin təklifinə əməl olunarsa, iki dövlət məhz bu baza prinsipləri əsasında intensiv, substantiv və nəticəyə yönəlik danışıqlar apararaq ikitərəfli sülh sazişini yekunlaşdıra bilər.

Amma hadisələrin gedişatı göstərir ki, Ermənistan hələ də köhnə ampluasında qalaraq kimdənsə yardım, dəstək gözləyir. Sülh danışıqlarına başlamaq üçün müxtəlif bəhanələr gətirir. Hətta bu azmış kimi "təkliflər" də irəli sürür. Ötən ay rəsmi İrəvan Azərbaycanla sülh danışıqlarının Helsinki Yekun Aktı və BMT-nin Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktı üzrə təşkil edilməsi üçün Minsk qrupu həmsədrlərinə müraciət etdiyini bildirmişdi.

Əlavə edək ki, Helsinki Yekun Aktında ərazi bütövlüyünün toxunulmazlığı ilə yanaşı, "öz müqəddəratını təyinetmə" məsələsi də əks olunur. O cümlədən, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktı "öz müqəddəratını təyinetmə" prinsipinə əsaslanır. Bu da təbii ki, İrəvanın sülh sazişinə Qarabağdakı ermənilərin "öz müqəddəratını təyinetmə" hüququnu daxil etmək niyyətindən xəbər verir.

Digər tərəfdən Ermənistan qarşılıqlı şəkildə ərazi bütövlüyünün tanınmasına razılığını bildirir, lakin Azərbaycanın Qarabağda erməni əhalisinin hüquqlarının təmin edilməsinə zəmanət verməsini istəyir. "Müqəddəratını təyinetmə" prinsipi üzrə aparmaq istədiyi sülh sazişi danışıqlarını həmsədrlərə həvalə etməklə Qarabağdakı ermənilər üçün "status" hüququna nail olmağa "çalışır".

Amma cəmi 44 günə Azərbaycan qarşısında diz çökən məğlub ölkə indiyədək başa düşmək istəmir ki, "status" artıq yoxdur. Onun yerini qalib Komandan kimi İlham Əliyev bəyan edib. Əgər bu məsələyə baxılarsa, Qarabağdakı ermənilərin vəziyyəti Ermənistanın yox, Azərbaycanın daxili məsələsidir.

Göründüyü kimi, İkinci Qarabağ müharibəsindən ötən müddət ərzində aparılan danışıqlarda hələ də yekdil qərarın qəbul edilməməsinin səbəbi məğlub ölkənin yenə də öz məqsədi naminə addımlar atmasıdır. Ermənistanın nəinki sülh danışıqlarına getməməsi, heç 10 noyabr üçtərəfli Bəyanatının müddəalarına da tam olaraq əməl etməkdən boyun qaçırması prosesin bu günə qədər ləngiməsinin əsas səbəbidir.

Prezident İlham Əliyev dəfələrlə Ermənistana mesaj göndərərək Zəngəzur dəhlizinin bərpasında rəsmi İrəvanın üzərinə götürdüyü öhdəliyin icrasını tezləşdirməsini tələb etsə də, bu məsələdə də qarşı tərəf bəhanələr uydurdu. Ancaq sonu yenə də Ermənistan üçün pis oldu. Azərbaycan Zəngəzur dəhlizinə alternativ yolun açılması məqsədilə İranla Anlaşma Memorandumu bağlayaraq İrəvana kommunikasiyanın açılması ilə bu ölkənin əldə edə biləcəyi dividendləri itirmək riski yaratdı. Yəni Azərbaycan Prezidenti məğlub ölkəyə göstərdi ki, artıq Zəngəzur dəhlizi Azərbaycan üçün o qədər də əhəmiyyətli sayıla bilməz. Bu dəhliz bizim üçün gediş-gəliş imkanlarımızı yaxşılaşdırmaq imkanı yaradar. Yəni Ermənistan bu dəhlizdən əldə edə biləcəyi iqtisadi dividendləri də itirir.

Atdığı bütün addımlarla, verdiyi qərarlarla ölkəsini səfalətə sürükləyən Nikol Paşinyan hələ də dinc yanaşı yaşamaq variantını seçmək əvəzinə, fəaliyyətsizliyi ilə Azərbaycanın gözündən düşmüş, münaqişəni 30 il ərzində həll edə bilməyən ATƏT-in Minsk qrupuna müraciət edir və bununla da sülh müqaviləsini növbəti dəfə uzatmağa çalışır.

Amma Azərbaycanın irəli sürdüyü beş bəndlik şərtlərində vasitəçilik məsələsi barədə bir kəlmə də yoxdur. Daha dəqiq desək, şərtlər və təkliflər birbaşa Ermənistan rəhbərliyinə çatdırılıb, eyham vurulub ki, müzakirələr yalnız ikitərəfli formatda baş tutmalıdır. Əgər Ermənistan bu dəfə də Azərbaycan Prezidenti İlham Əliyevin irəli sürdüyü 5 şərtə qarşı spekulyasiyalı davranış nümayiş etdirəcəksə, onda Ermənistan nəqliyyat blokadasında qapalı vəziyyətdə saxlanılacaq, Azərbaycan birtərəfli qaydada ölkənin yeni sərhədlərinin mövqelərini müəyyən edəcək.

Bir sözlə, bu gün regionda bütün proseslərin, danışıqların diktəsi Azərbaycana, onun liderinə məxsusdur. İlham Əliyevin 5 baza prinsipinin yerinə yetirilməsində Ermənistan tələsməlidir, çünki artıq zaman vaxt itkisidir.

# 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR

1813-cü və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri ilə Azərbaycan xalqının parçalanması və tarixi torpaqlarımızın bölünməsinin əsası qoyulub, sonrakı dövrdə isə həmin torpaqların özgəninkiləşdirmə prosesinə başlanılıb.

Qısa müddətdə ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilib.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail olublar. Süni ərazi bölgüsü, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması, Azərbaycan xalqına qarşı soyqırım siyasətinin həyata keçirilməsinə şərait yaradıb. Azərbaycan torpaqlarında "Böyük Ermənistan" ideyasını reallaşdırmaq üçün erməni xalqının tarixinin saxtalaşdırılmasına başlanılıb.

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar həyata keçiriblər. Bakıdan başlanan kütləvi qırğınlar Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə edib. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilib.

Birinci Dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər bu dəfə öz mənfur niyyətlərini bolşevik bayrağı altında reallaşdırmağa çalışıblar. 1918-ci ilin mart ayından etibarən Bakı Kommunası tərəfindən əksinqilabçılarla mübarizə şüarı altında Bakı quberniyasının azərbaycanlılardan təmizlənməsi planı gerçəkləşdirilib.

Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan Şamaxı, Quba və digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib, yaşayış məntəqələri dağıdılıb, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilib. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirib, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçiriblər.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilib və Nazirlər Şurası iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul edib. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradılıb.

1919 və 1920-ci illərin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilib. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra həmin proses dayandırılıb, baş verənlərin sona qədər tədqiq edilməsinin və hadisələrə müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınıb. Yalnız 80 il sonra - 1998-ci il martın 26-da Ümummilli Lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanda həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib və 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib. Fərmanda deyilir: "Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdikləri soyqırım siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir.



Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir".

Ümummilli Lider Heydər Əliyev 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar deyib: "Xalqımıza qarşı törədilmiş soyqırımı haqqında həqiqətləri real faktlar, dəlillər əsasında dünya dövlətlərinə, nüfuzlu beynəlxalq təşkilatlara çatdırmaq, saxta erməni təbliğatı nəticəsində formalaşmış yalan təsəvvürləri dəyişdirmək, ona hüquqi-siyasi qiymət verdirmək nə qədər çətin olsa da, şərəfli və müqəddəs bir iş kimi bu gün də, gələcəkdə də davam etdirilməlidir. Bu, soyqırımı qurbanlarının xatirəsi qarşısında indiki nəslin müqəddəs borcudur".

Son illər bu sahədə aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni fakt və sənəd toplanılıb. Quba şəhərində tapılan kütləvi məzarlıq bu faciənin qanlı epizodlarından biridir. Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkar edilib.

2009-cu ildə Nazirlər Kabinetinin Sərəncamı ilə "Quba rayonunda kütləvi qətl qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə dair tədbirlər planı" təsdiq edilib, aşkar olunmuş kütləvi məzarlığın yerləşdiyi ərazidə monumental xatirə kompleksinin ucaldılması və abadlıq işlərinin aparılması qərara alınıb. 2007-ci ilin iyulundan etibarən Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işlərinə başlanılıb, 2008-ci ilin sentyabrında isə tədqiqat işləri başa çatdırılıb. Tədqiqat nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımla bağlı olduğu müəyyən edilib. Tədqiqat işlərinin nəticəsi olaraq məzarlıqda müxtəlif yaş qruplarına aid 400-dən çox insan cəsədinin qalıqları aşkar edilib. Onlardan 50-dən çoxu uşaqlara, 100-dən çoxu qadınlara, qalanları isə əsasən yaşlı kişilərə aiddir. Müəyyən edilib ki, məzarlıqda azərbaycanlılarla bərabər, Qubada yığcam halda yaşayan ləzgi, yəhudi, tat və digər etnik qrupların nümayəndələri də amansızcasına qətlə yetirilərək basdırılıblar.

Ərazidə yaradılmış Quba Soyqırımı Memorial Kompleksinin 2013-cü il sentyabrın 18-də açılışı olub. Həmin mərasimdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyib: "Sovet dövründə təbii ki, tarix təhrif edildiyi üçün bu həqiqətlər bizdən gizlədilirdi. Uzun illər Azərbaycan xalqının qanını axıdan quldurlar, - onların da mənfur adları orada göstərilir, - Şaumyan və onun kimiləri bizə qəhrəmanlar kimi təqdim edilirdi. Hesab edirəm ki, bu, böyük faciədir. Çünki uzun illər xalqımıza qarşı amansızlıqla vəhşilik törədən ünsürlər sovet tarixində qəhrəman kimi təqdim edilirdi, onların şərəfinə abidələr ucaldılırdı. Yalnız müstəqillik dövründə biz həqiqi ədaləti bərpa etdik. Gözəl şəhərimizi, Bakımızı o abidələrdən təmizlədik və bu gün o yerlərdə gözəl parklar, o cümlədən, Sahil parkı yaradılıbdır. Yəni tarix, ədalət zəfər çaldı. Biz bu gün öz tariximizə qayıdırıq. Tarixin bütün məqamlarını bilirik, bilməliyik. Gənc nəsil də bilməlidir ki, xalqımız keçmişdə hansı fəlakətlərlə üz-üzə qalmışdır".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci il yanvarın 18-də "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncam imzalayıb. Sərəncamda deyilir: "Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut etmişdir".

**Azərbaycan xalqı və dövləti soyqırım qurbanlarının xatirəsini daim əziz tutur, bütün dünyanı erməni faşizminin iç üzünü görmək üçün bu tarixi hadisələrdən ibrət götürməyə çağırır.**

**President.az saytının materialları əsasında hazırlanıb.**

2_Layout 1 30.03.2022 10:36 Page 1



# İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının əməkdaşları Daxili Qoşunların hərbi hissəsində olublar

"Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) Aparatının "Ombudsman təsisatı və hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı aparılan işlər" mövzusunda, həmçinin, insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə əlaqədar Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin və hərbi hissələrinin şəxsi heyəti ilə 2022-ci ildə keçirilməsi nəzərdə tutulan birgə görüşlərə dair tədbirlər planı"na əsasən, martın 18-də Azərbaycan Respublikasının Ombudsman Aparatının Hərbi Qulluqçuların Hüquqlarının Müdafiəsi Sektorunun müdiri Fəzail Həsənov və həmin sektorun böyük məsləhətçisi Murad Babayev Daxili Qoşunların 16075 saylı hərbi hissəsində olublar.



Görüşün keçirilməsində əsas məqsəd Ombudsman Aparatının hərbi qulluqçuların hüquq və azadlıqlarının qorunub saxlanılması sahəsində həyata keçirdiyi fəaliyyət haqqında şəxsi heyətə ətraflı məlumat vermək, hərbi qulluqçuların hüquqi baxımdan maarifləndirilməsini təmin etmək və onları maraqlandıran sualları cavablandırmaq olub.

İlk olaraq, hərbi hissənin ərazisi ilə tanış olan qonaqlar daha sonra xüsusi təyinatlı dəstənin yataqxanasına, tibb məntəqəsinə, modul tipli kluba, kitabxanaya, idman zalına, anbarlara və əsgər yeməkxanasına ümumi baxış keçiriblər. Ombudsman institutunun yaranması və səlahiyyətləri, insan hüquqları, bu əsnada, hərbi qulluqçuların hüquqları, Ombudsmanın bu istiqamətdə çoxşaxəli fəaliyyəti barədə məlumat verən Fəzail Həsənov mövcud hərbi qanunvericilik və hərbi nizamnamələr mövzusunda şəxsi heyətlə söhbətlər aparıb. Hərbi hissədə hüquqi maarifləndirmə, təlim-tərbiyə işləri, şəxsi heyətin yüksək döyüş ruhu, psixoloji durumu, Vətənə sədaqət və vətənpərvərlik hisslərinin gücləndirilməsi üçün həyata keçirilən tədbirlərin nəticələri diqqətdə saxlanılan məsələlərdən olub. Həmçinin, o, Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ordumuzun möhtəşəm hərbi zəfərinin böyük tarixi əhəmiyyətindən danışaraq, ərazi bütövlüyümüzün bərpasında xalqımızın igid övladlarının göstərdikləri qəhrəmanlıq nümunələrinin hər birimizdə haqlı iftixar hissi doğurduğunu qeyd edib, şəhid olmuş hərbi qulluqçuların ailə üzvlərinə və döyüşlər zamanı yaralanmış qazilərə hər zaman yüksək diqqət və qayğı göstərilməsinin vacibliyini hərbi hissə komandanlığının nəzərinə çatdırıb. Onların döyüş yolu və fədakarlığının hazırda xidmətdə olan bütün hərbi qulluqçulara örnək olduğunu xüsusi olaraq vurğulayıb.

Ümumilikdə, hərbi qulluqçular üçün yaradılmış şərait, onlarla rəftar, qida və müalicə işinin keyfiyyəti aparatın əməkdaşları tərəfindən müsbət qiymətləndirilib.

Qeyd edək ki, müvafiq tədbirlər planına əsasən, ilin sonunadək Daxili Qoşunların müxtəlif hərbi hissələrində Ombudsman Aparatı əməkdaşlarının şəxsi heyətlə görüşlər keçirməsi nəzərdə tutulur.

**Mətbuat xidməti**

# XÜSUSİ VASİTƏLƏRİN TƏTBİQİ BÖLMƏSİ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞINA MALİKDİR

67987 saylı hərbi hissədə döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri mayor Rüfət Muradovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsidir.





Hərbi hissə komandiri tərəfindən xidməti-döyüş fəaliyyəti müsbət qiymətləndirilən bölmə barədə məlumat verən mayor R.Muradov bildirdi ki, dəstənin döyüş hazırlığının yüksəldilməsi üçün şəxsi heyətin döyüş təliminin metodiki cəhətdən düzgün keçirilməsi, mənəvi-psixoloji durumun yüksək olması, hərtərəfli təminatın mövcudluğu qarşıya qoyulan tapşırıqların dəqiq və vaxtında yerinə yetirilməsinə zəmin yaradır. Bölməyə təhkim olunmuş döyüş texnikasının, silah-sursatın və müxtəlif əmlakların vəziyyətinin daima diqqətdə saxlanılması, daxili qayda-qanuna riayət edilməsi də bu istiqamətdə əsas amillərdən biridir. Bölmənin şəxsi heyətinin döyüş və ictimai-siyasi hazırlığına, tərbiyəsinə, hərbi intizamına, daxili qayda-qanuna riayət edilməsinə, qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə cavabdehlik daşıyan komandir üzərilərinə düşən vəzifələrin icrasına hər zaman hazır olduqlarını nəzərimizə çatdırdı.

Şəxsi heyətin nəzəri biliyinin və döyüş hazırlığının artırılması məqsədilə, tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla ictimai-siyasi, atəş, fiziki, taktiki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, o cümlədən, sıra və ixtisas hazırlığından məşğələlər təşkil olunur. Məşğələlərin keçirilməsində qrup və yarımqrup komandirlərinin metodiki cəhətdən biliklərinin artırılması, hərbçilər tərəfindən mövzuların dərindən qavranılması prosesi əsas götürülür.

Bölmədə keçirilən tərbiyə işi saatlarının əhəmiyyətindən söz açan dəstə komandiri şəxsi heyətlə yüksək nizam-intizama nail olunması və onun qorunub saxlanılması mövzusunda söhbətlərin aparıldığını bildirdi. O, bu işdə dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Samir Məmmədovun əməyini xüsusilə qeyd etdi. Bildirdi ki, mayor S.Məmmədov hərbi qulluqçuların mənəvi-psixoloji durumunun yüksəldilməsi istiqamətində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.

Məşğələlərin plan-konspektlərinin hazırlanmasında və hərbi qulluqçuların tərbiyəsi işində xüsusi vasitələrin tətbiqi qrupunun komandiri leytenant Aslan Məmmədovun zəhmətini vurğuladı. Mayor R.Muradov hərbi xidmətdə daim əzmkarlıq və nümunə göstərməyi bacaran xüsusi vasitələrin tətbiqi dəstəsinin bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcəyinə və qarşıya qoyulan tapşırıqları yerinə yetirərkən peşəkarlıq göstərəcəyinə əminliyini ifadə etdi.

**baş leytenant**
**Nigar Ağayeva**

# MƏRKƏZLƏŞDİRİLMİŞ MADDİ-TEXNİKİ TƏMİNAT UĞURLA İCRA EDİLİR

Bu gün Daxili Qoşunlar komandanlığının diqqət yetirdiyi vacib məsələlərdən biri də qoşunların maddi-texniki təminatıdır. Qoşunların maddi-texniki təchizat bazasının daha da artırılması daima ciddi nəzarətdə saxlanılır və bu istiqamətdə genişmiqyaslı işlər görülür. Hərbi hissələrin lazımi təminat növləri ilə təchizatında əsas iş 64412 saylı hərbi hissənin üzərinə düşür.



Hərbi hissənin-mərkəzləşdirilmiş anbarların komandiri polkovnik-leytenant Telman Əliyev qeyd etdi ki, 1992-ci ilin iyun ayında Daxili İşlər nazirinin müvafiq əmri ilə yaradılan qoşunların mərkəzi anbarları təyinatı baxımından xüsusi və çox məsuliyyətli vəzifələri uğurla icra edir. Daxili Qoşunların Baş İdarəsinin və hərbi hissələrinin vaxtlıvaxtında, müvafiq normativ sənədlərin tələblərinə əsasən mərkəzləşdirilmiş maddi-texniki təminatını hərbi hissə həyata keçirir: "Müxtəlif təşkilatlardan və müəssisələrdən hərbi hissəyə daxil olan bütün növ əmlaklar, o cümlədən, ərzaq məhsulları ictimai nəzarət komissiyasının iştirakı ilə yoxlanılaraq anbarlara qəbul edilir. Sonra Daxili Qoşunlar komandanlığının müvafiq əmr və göstərişlərinə əsasən, hərbi hissələrin təminatına buraxılır. Hərbi hissədə ərzaq, ərzaq əmlakı, əşya, avtomobil və zirehli texnika ehtiyat hissələri, YSM, silah-sursat, mənzil-istismar, rabitə və AİS, tibb, mühəndis, kimya, xəritə, mədəni-maarif, aviasiya və ehtiyat hissələri anbarları və 2 emalatxana (silah təmiri, rabitə emalatxanaları) mövcuddur. Əsas diqqət yetirilən məsələlərdən biri də anbarlarda və emalatxanalarda səliqə-sahmana, yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət edilməsi, hərbi qulluqçuların bu qaydalarla bağlı təlimatlandırılmasıdır".



Hissə komandiri gündəlik xidməti fəaliyyət haqqında məlumat verərkən bildirdi ki, ilk olaraq şəxsi heyətlə yerbəyer mərasimi keçirilir, onlara vəzifələri üzrə aidiyyəti tapşırıqlar verilir. Ardınca hər anbar rəisi cavabdeh olduğu anbarın mühafizə altından çıxarılmasında iştirak edir. Sonra anbar rəisləri hissə komandanlığı tərəfindən gündəlik olaraq qarşıya qoyulan tapşırıqların icrasına başlayırlar: "Şəxsi heyət xidməti fəaliyyətini rəhbər sənədlərin tələbləri əsasında qurur. Hər bir hərbi qulluqçu üzərinə düşən tapşırıqların məsuliyyətini tam dərk edir və funksional vəzifələrini uğurla yerinə yetirir"

Anbarların etibarlı mühafizəsinin təmin olunması üçün burada müvafiq siqnalizasiya sistemi quraşdırılıb. Bütün anbarlar yanğından mühafizə vasitələri ilə təchiz edilib. Komandir nümunəvi xidməti, nizam-intizamı ilə fərqlənən hərbi qulluqçulardan rabitə və AİS əmlakları anbarlarının rəisi gizir İbrahim Abbaszadənin və mədəni-maarif əmlakları anbarlarının rəisi gizir Günay Məmmədovanın adlarını çəkdi, onların xidmətlərinə məsuliyyətlə yanaşan, savadlı, bacarıqlı hərbi qulluqçular olduqlarını diqqətə çatdırdı.

Rabitə və AİS əmlakları anbarlarının rəisi gizir İbrahim Abbaszadə anbarlarda olan maddi-texniki vəsaitlərin düzgün mədaxil-məxaricinə, onların buraxılması üzrə sənədlərin tərtib edilməsinə, uçotun dəqiq aparılmasına, daxili qaydalara riayət olunmasına, sanitar vəziyyətə, yanğından mühafizəyə və ümumilikdə, bütün təhlükəsizlik tədbirlərinin qorunub saxlanılmasına cavabdehdir. Daxili Qoşunların Baş İdarəsinin və hərbi hissələrin rabitə və AİS əmlakları ilə təminatını hərtərəfli və fasiləsiz həyata keçirmək, anbarlarda saxlanılan əmlakların nomenklaturasını bilmək, onların komplektliyinə, mövcudluğuna, o cümlədən, keyfiyyətinə nəzarət etmək də anbar rəisinin funksional vəzifələrinə daxildir. Gizir İ.Abbaszadə bildirdi ki, gün ərzində anbarlarda olan əmlakların dəqiq hesabatı aparılır, mədaxil-məxaric sənədləri məsul icraçıya təqdim olunur. Bundan başqa, ayda bir dəfədən az olmayaraq, məsul icraçı ilə tutuşdurma aparılır.

Rabitə və AİS əmlakları anbarlarının məsul icraçısı gizir Könül Səmədova da qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlir. O, qeydiyyat kitablarını və blanklarını, habelə anbarlardan əmlakların buraxılması üzrə sənədləri düzgün tərtib edir, uçot kitablarını vaxtlı-vaxtında hazırlayır, sənədlərin qorunub saxlanılmasına məsuliyyətlə yanaşır. Bununla yanaşı, anbar rəisi ilə razılaşdırılmış şəkildə mədaxil-məxaric sənədlərini yazır, qeydiyyat kitablarında olan maddi vəsaitlərin qalıqlarını anbarın qeydiyyat məlumatları ilə müntəzəm olaraq tutuşdurur.





Hərbi hissədə fəaliyyət göstərən digər anbarlar kimi mədəni-maarif əmlakları anbarlarının xidməti təqdirəlayiqdir. Bu işdə anbar rəisi gizir Günay Məmmədovanın rolu böyükdür. O, 2018-ci ilin yanvar ayından hərbi hissədə xidmət edir. Funksional vəzifələrinin icrasına vicdanla yanaşır, bacarıqlı hərbi qulluqçu kimi yoldaşlarına nümunədir.

Gizir G.Məmmədova ilə söhbət zamanı məlum oldu ki, gündəlik olaraq Daxili İşlər Nazirliyinin və Daxili Qoşunların mətbəəsindən daxil olan əmlaklar anbarlara mədaxil edilir, uçotu aparılır və müvafiq göstərişlər olduqda qaimələr əsasında hərbi hissələr üzrə paylanılması təmin olunur. Həmçinin, əlavə etdi ki, növbəti ayın 5-nə kimi anbarlarda qalıqlar çıxarılır, üzləşmə aparılır və Daxili Qoşunların Baş İdarəsinə hesabatlar göndərilir. Maddi-texniki vasitələrin anbarlardan verilib-alınmasına, düzgün saxlanılmasına, uçotunun dəqiq aparılmasına və faktiki mövcudluğuna, anbarlarda daxili qaydalara riayət olunmasına və sanitar vəziyyətə cavabdehlik daşıyan anbar rəisi bütün görülən işlərdə mədəni-maarif əmlakları anbarlarında məsul icraçı gizir Mənsurə Əhmədovanın da əməyinin olduğunu dedi. Onu çalışqan və məsuliyyətli hərbi qulluqçu kimi xarakterizə etdi.

**kapitan Xədicə Hacızadə**

*Şəhidlərimiz*

# DÜŞMƏNƏ QARŞI MƏRDLİKLƏ VURUŞARAQ ŞUŞADA ŞƏHADƏTƏ UCALDI...

Hər bir dövlət və xalq üçün müharibə ağır sınaqdır. Hərbi təcavüzə qarşı səfərbər olunmağı bacaran, öz gücünü toparlayaraq döyüş qabiliyyətini qoruyan, düşmən üzərində qələbə naminə qurbanlar verən, mənəvi dəyərlərinə, qəhrəmanlıq ənənələrinə sadiq qalan ölkə məğlubedilməz, onun vətəndaşları yenilməzdir. Fəxrlə qeyd etmək olar ki, Azərbaycan məhz belə ölkədir. 44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm hərbi zəfər bunu bir daha bütün dünyaya göstərdi.

Xalqımızın bir də soyqırım, işğal, məcburi köçkünlük faciələrini yaşamaması, erməni işğalçılarının bizə qarşı törətdikləri vəhşiliklərin intiqamının alınması, ərazi bütövlüyümüzün bərpası üçün şəhidlik zirvəsinə ucalan hərbi qulluqçularımızın mərdlik və fədakarlıq nümunələri daim gənclərimizi rəşadətə ruhlandıracaq.

Vətən müharibəsi şəhidlərindən biri olan baş çavuş Qəsəbov İsmayıl Nəbi oğlunun ömür yolu barədə məlumatlar topladım. O, 1991-ci il iyulun 6-da Qazax rayonunun Çaylı kəndində doğulub. Ailənin sonbeşiyi idi, özündən bir yaş böyük olan Nazim adlı qardaşı var. İsmayılın böyüyərək boya-başa çatdığı ailənin qayğıları, çətinlikləri az olmayıb. Cəmiyyət üçün layiqli övladlar yetişdirilməsində Kəmalə Carçıyeva əməyini əsirgəməyib.

Qeyd edim ki, İsmayılın anası Kəmalə xanımın babası İsgəndər Carçıyev II Dünya müharibəsində faşistlərə qarşı döyüşüb.

İsmayıl Çaylı kəndində yerləşən şəhid Elşən Cəfərov adına 2 saylı tam orta məktəbdə təhsil alıb. Onun vətənpərvər və məneviyyatlı gənc kimi formalaşmasında müəllimlərinin verdikləri tərbiyə, aşıladıqları biliklər də vacib rol oynayıb. Ədalətli və dürüst olmaq məsələsinə o vaxtdan çox həssas yanaşıb. Attestatında "yaxşı" qiymət yazılan fənlərdən biri də insan və cəmiyyətdir. Orta məktəbdə oxuyarkən o, gələcəklə bağlı arzularından danışdıqda ya polis, ya da hərbçi olacağını deyib.

Yeniyetməlik yaşından İsmayıl fiziki hazırlığına diqqət yetirib, idmanın güləş və karate növləri ilə maraqlanıb, məşqlərə gedib.

2009-cu ilin oktyabr ayında İsmayıl müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2011-ci ilin aprel ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin tərkibində xidmət keçib. Ön mövqedə torpaqlarımızın müdafiəsində dayanıb. Müddətli həqiqi hərbi xidmət zamanı ona "kiçik çavuş" hərbi rütbəsi verilib.

Azərbaycan Ordusu sıralarından ehtiyata buraxıldıqdan sonra ailəyə maddi kömək göstərmək üçün bir müddət tikinti şirkətində fəhlə işləyib. İsmayıl doğmalarına və yoldaşlarına mülki sahədə işləmək istəmədiyini, rəğbətlə yanaşdığı hərbçi peşəsinə meyilləndiyini bildirib. Belə bir münasibəti onun dünyagörüşünə və xarakterinə tam uyğun idi. Beləliklə, müddətdən artıq həqiqi hərbi xidmətlə bağlı qərar verib. Hərbi xidmət keçmək üçün ictimai təhlükəsizliyin təmin edilməsində polislə birgə fəaliyyət göstərən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarını seçib. 2012-ci ilin dekabr ayının 21-də Daxili Qoşunların 17072 saylı hərbi hissəsinin komendant bölüyündə komendant taqımı komandirinin müavini vəzifəsinə təyin edilib. Sonrakı hərbi xidməti 16077 və 99713 saylı hərbi hissələrdə keçib. Xüsusi təyinatlı dəstədə xüsusi həmlə qrupunun yarımqrupunda atıcı-sanitar, qumbaraatan köməkçisi, qumbaraatan, xüsusi əməliyyat qrupunun yarımqrupunda atıcı-qumbaraatan vəzifələri İsmayıla həvalə olunub. Təyin edildiyi vəzifələrdə komandanlığın etimadını doğruldaraq "baş çavuş" hərbi rütbəsinədək yüksəlib, nümunəvi xidməti nəzərə alınaraq dəfələrlə mükafatlandırılıb. Xüsusi təyinatlı kimi qarşıya qoyulan tapşırıqları əzmkarlıqla yerinə yetirib, xidmət etdiyi qoşunun nüfuzunu həmişə uca tutub. Təlimlərdə çalışqanlığı göstərib, taktiki hazırlığı üzrə bilik və bacarıqlarını təkmilləşdirib, silah və xüsusi vasitələrin istifadə qaydalarını mükəmməl mənimsəyib, sərrast atəşaçma qabiliyyəti ilə seçilib. Peşə hazırlığında uğurlu nəticələrinə və məharətinə görə zoğalı beret daşımağa layiq görülüb. Harada xidmət edibsə, komandirlərinin və yoldaşlarının hörmətini qazanıb.



Xüsusi təyinatlı hərbi xidməti dövründə düşmən tapdağındakı yurdlarımızın azad olunması üçün döyüş əmrinin veriləcəyi günə hərtərəfli hazırlaşıb.

2020-ci ilin sentyabr ayının 27-də başlayan Vətən müharibəsinin ilk günündən döyüşə atılan İsmayıl erməni işğalçılarına qarşı mətinliklə vuruşub. Xüsusi təyinatlının şərəfli döyüş yolu Murovdağdan başlayaraq Şuşayadək davam edib.

Vətən müharibəsi qazisi, II qrup əlil, istefada olan gizir Rasim Yaxin İsmayılla 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində eyni qrupda xidmət etdiklərini bildirdi. Rasim yarımqrup komandiri olub və eyni zamanda, qrup komandirinin vəzifəsinin icrası ona tapşırılıb. Silahdaşının yoldaşlıqda səmimiyyəti və etibarlılığını, kollektivdə etik davranışını, vəzifə borcuna vicdanla yanaşdığını, xidmətdə və təlimdə istənilən çətinliyin öhdəsindən gəldiyini xüsusi vurğuladı.

Qazi məlumat verdi ki, müharibədə İsmayılın necə cəsurluqla döyüşdüyünü görüb, o od-alovlu günlərdə silahdaşına hər an arxalanıb.

Müdafiə Nazirliyinin xüsusi təyinatlılarının daxil olduqları qrupların tərkibində Murovdağ silsiləsi, Cəbrayıl, Füzuli, Xocavənd, Xocalı rayonları və Şuşa şəhəri istiqamətlərində döyüş əməliyyatlarında iştirak etdiklərini söyləyən Rasimin sözlərinə görə, 44 gün ərzində yalnız irəliləyiblər, erməni hərbçiləri onların qarşısında dayana bilməyiblər, təcavüzkar canlı qüvvə, texnika və silah-sursat sarıdan ciddi itkilərə məruz qalıb. İsmayıl avtomat silahı ilə erməni işğalçılarına tutarlı atəş zərbələri endirib, onların bir neçə postunun susdurulmasında şəxsi şücaət göstərib.

Həmsöhbətim dedi ki, döyüşlərarası məqamlarda İsmayılla söhbət edərkən o, övladları haqqında danışdıqda kədərlənirdi, onların gələcəyi ilə bağlı arzuları vardı.

Rasim noyabrın 6-da Şuşaya hücuma keçdiklərini, şəhərin yaxınlığında şiddətli döyüşlərin getdiyini, düşmənin mövqelərinin nəzərətə götürüldüyünü diqqətə çatdırdı. Noyabrın 7-də Şuşanın yaxınlığında mövqeləndikləri ərazini işğalçılar tanklardan və minaatanlardan atəşə tutublar, bu zaman Rasim ağır yaralanıb, onun yanında olan İsmayıl isə şəhadətə qovuşub.

Vətən müharibəsi iştirakçıları: 99713 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin mühafizə yarımqrupunda mühafizəçi baş çavuş Dəyanət İsayev, atəş təminatı qrupunun iriçaplı pulemyot yarımqrupunda pulemyotçu baş çavuş Paşa İmanov və 17074 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun yarımqrupunda pulemyotçu çavuş Sənan Tanrıverdiyev silahdaşlarının müharibədə qorxmazlığı, dözüm və iradəsi ilə fərqləndiyini, hər bir vəziyyətdə ruh yüksəkliyini qoruyub saxladığını, yaralıları ataş altından çıxartmaq üçün özünü çevik onlara yetirdiyini, ilk yardım göstərməyi bacardığını, ərzaq ehtiyatı tükəndikdə təbiət nemətlərindən necə bəhrələnməyi bildiyini, ayıq-sayıqlığı nəticəsində bir sıra döyüşçülərin pusquya düşməsinin qarşısını aldığını, son döyüşədək dəfələrlə ölüm təhlükəsi ilə üzləşdiyini, Şuşaya bayrağımızı sancmağı arzuladığını bildirdilər.



15 noyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə İsmayılın 7 noyabr 2020-ci ildə Şuşada hərbi əməliyyat nəticəsində digər növ partlayışlar və ya qəlpələrlə törənmiş zədələnmələr səbəbindən şəhid olduğu barədə qeydlər öz əksini tapıb.

Şəhid hərbi qulluqçumuz noyabrın 12-də Çaylı kəndindəki Şəhidlər xiyabanında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı müvafiq sərəncamlarla baş çavuş İ.Qəsəbov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Çaylı kəndindən 27 nəfər I Qarabağ müharibəsində, 6 nəfər Vətən müharibəsində şəhidlik zirvəsinə ucalıb. Kənddə İsmayılın xatirəsinə dostlarının təşəbbüsü ilə abidə-bulaq kompleksi yaradılıb. Məzunu olduğu məktəbdə 4c sinfinə, bununla yanaşı, Bakıdakı 51 saylı tam orta məktəbdəki kitabxanaya, 129 saylı tam orta məktəbdəki 6e sinfinə, Qazax şəhərində küçələrdən birinə İsmayılın adı verilib. Qazax şəhərində yerləşən Şəhidlər parkında İsmayıla həsr olunan plakat quraşdırılıb, Çaylıda da plakat hazırlanıb.

Elçin İsmayılın müəllifi olduğu "Qanları ilə dastan yazanlar" kitabında şəhid haqqında məqalə dərc olunub.

Şəhadətə qovuşan hərbi qulluqçumuz haqqında ayrı-ayrı televiziya kanalları tərəfindən süjetlər çəkilib, sosial şəbəkələrdə videoçarxlar hazırlanaraq yayımlanıb.

Şəhidin Xırdalan şəhərində yaşayan ailəsinə baş çəkdim. Mənzildə səliqə ilə düzəldilən guşədə saxlanılan şəkillər və əşyalar İsmayılı xatırladır. İsmayıl 2017-ci ilin iyul ayında Lalə xanımla ailə qurub. Onların iki övladı dünyaya gəlib, adlarını Mərd və Uğur qoyublar. Mərd Heydər Əliyev Fondunun qayğısı sayəsində Ulu Öndərin adını daşıyan Müasir Təhsil Kompleksinin uşaq bağçasına qəbul olunub. Lalə xanım inanclı, xeyirxah, qayğıkeş, ailəcanlı olmuş İsmayılın yoxluğu ilə barışa bilmir. Həyat yoldaşı barədə xatirələrini bölüşdü. Söhbət zamanı Mərd və Uğuru İsmayılın adına layiq tərbiyə edərək böyüdəcəyini söylədi. O, şəhidlərlə bağlı təşkil olunan ictimai tədbirlərdə fəal iştirak edir. Hazırda Azərbaycan Kooperasiya Universitetində təhsil alır.

Qazax Rayon Polis Şöbəsinin post-patrul bölüyündə polis serjantı olan şəhidin qardaşı Nazim vətəndaşlarımızın əmin-amanlığı keşiyindədir.

Məqaləni şəhid haqqında yazılan şeirlərdən birinin misraları ilə bitirirəm:

***Döyüşlərdə tarix yazdın qanınla,***
***Bu torpağı sən qorudun canınla.***

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# "DİNİ RADİKALİZMLƏ MÜBARİZƏ: HÜQUQİ VƏ MƏNƏVİ YANAŞMA" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLİB

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında Daxili Qoşunların şəxsi heyətinin dini maarifləndirilməsi istiqamətində birgə işin təşkilinə dair tədbirlər planına əsasən, dini radikalizmlə mübarizənin effektivliyinin artırılması məqsədilə Daxili Qoşunların 17072 saylı hərbi hissəsində "Dini radikalizmlə mübarizə: hüquqi və mənəvi yanaşma" mövzusunda tədbir keçirilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov, komitənin Gəncə bölgəsi üzrə şöbəsinin müdiri Həsən Məmmədov, şöbədə baş məsləhətçi Şahmar Verdiyev və hərbi hissənin şəxsi heyəti iştirak edib.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant İramin Məsimov öz giriş nitqində mövzunun əhəmiyyətini vurğulayaraq, gəncləri radikal dini cərəyanların qurbanına çevrilməkdən qorumağın, onları vətənpərvər ruhda tərbiyə etməyin zəruriliyindən danışıb. O bildirib ki, dini radikalizm və ekstremizmə qarşı mübarizədə ən effektli vasitələrdən biri də vətənpərvərlik hissinin gücləndirilməsidir. Bu baxımdan hərbi qulluqçuların maarifləndirilməsi daim diqqət mərkəzində saxlanılır. Polkovnik-leytenant İ.Məsimov, həmçinin, əlavə edib ki, şəxsi heyətin vətənpərvərlik hissi, mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksək səviyyədədir.

Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini S.Heydərov nəzərə çatdırıb ki, müasir dünyada dini radikalizm, onun fəsadı olan ekstremizm və terrorizm nəticəsində milyonlarla insan ya öldürülüb, ya da öz doğma vətənindən didərgin düşüb. O, təəssüflə qeyd edib ki, son zamanlar dünyada baş verən terror aktlarının əksəriyyəti İslam dini pərdəsi altında gizlənən, lakin İslamla heç bir əlaqəsi olmayan terrorçu dəstələr tərəfindən törədilir.




Dünyada baş verən bu cür neqativ hadisələrin fonunda tolerantlıq və multikulturalizm mədəniyyətinin inkişaf etdirilməsinin vacibliyinə diqqət çəkən S.Heydərov söyləyib ki, Azərbaycandakı dövlət-din münasibətləri modeli, multikulturalizm, tolerantlıq dünyaya bir nümunədir: "Azərbaycanda tarixən müxtəlif mədəniyyətlərin, dinlərin, millətlərin, etnik qrupların nümayəndələri qarşılıqlı hörmət, birgə yaşayış şəraitində bir ailə kimi yaşayıblar və bu ənənə günümüzdə də davam edir. Ölkəmizdə dini etiqad azadlığı tam təmin edilir və bütün dinlərin, xalqların, etnik qrupların nümayəndələri eyni hüquqlara malikdirlər".

Azərbaycanda belə bir mühitin mövcud olmasında cəmiyyətdə formalaşmış dini dözümlülük, tolerantlıq və multikultural dəyərlərə yanaşı, düşünülmüş dövlət siyasəti də çox böyük rol oynayır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dövlət tərəfindən bu sahədə yaradılan bütün zəruri şərait və dəstək dünyaya örnək sayılacaq səviyyədədir. Təbii ki, digər sahələrdə olduğu kimi, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri olub və bu siyasət dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sədr müavini onu da vurğulayıb ki, ölkəmizdə hökm sürən multikulturalizm və dinlərarası tolerantlıq mühitinə qarşı əsas təhdidlərdən biri dini radikalizmdir. O, dini radikalizmin yaranma səbəblərindən biri kimi İslam dini haqqında məlumatsızlığı göstərib. Dini biliklərin düzgün təqdim olunmamasının da yanlış təsəvvürlər formalaşdırdığını söyləyib.

Dini radikalizmə qarşı mübarizədə dini maarifləndirmə tədbirlərinin əhəmiyyətindən danışan qonaq qeyd edib ki, bu gün milli-mənəvi və dini dəyərlərin qorunması istiqamətində dövlət siyasəti həyata keçirilir. Dövlət Komitəsinin təbeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun, eyni zamanda, Azərbaycan İlahiyyat İnstitutunun yaradılması bu siyasətin bariz nümunəsidir.

Sonda hərbi hissələrdə bu cür maarifləndirici tədbirlərin keçirilməsinin vacibliyi bir daha vurğulanıb, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb.

**kapitan Xədicə Hacızadə**

# Qazilərə ictimai dəstək

Vətən müharibəsi qazilərinin sosial vəziyyətinin diqqətdə saxlanılması bizim onlara vəfa borcumuzdur. Müharibə iştirakçılarının işlə təmin olunması, sosial-psixoloji reabilitasiyaları üçün silsilə tədbirlər görülür ki, Daxili İşlər Nazirliyi bu məsələdə xüsusilə seçilir. Daxili işlər orqanlarında xidmətə qəbul müsabiqələrinə qatılıb seçilən namizədlərin sırasında müharibə iştirakçıları, şəhid yaxınları da mütləq yer alır. Yəni onlara haqq etdikləri daimi diqqət və qayğı göstərilir.



Vətənə borclarını qanları, canları ilə ödəmiş, ölümün gözünə dik baxmış müharibə qazilərinə xalq, ictimaiyyət olaraq sahib çıxmaq, ilk cümlədə qeyd etdiyimiz kimi, vəfa borcunun bir gərəyidir. "Etika Akademiyası" Fərdi İnkişaf Mərkəzi Vətən müharibəsi qazilərinə karyera imkanları yaratmaqla belə bir ictimai vəzifəni üzərinə götürüb, onlar üçün rəqabətə davamlı peşəyönümlü layihələr gerçəkləşdirir.



Akademiyanın rəhbəri Günel İbrahim fəaliyyətləri barədə "Polis"ə danışarkən bildirib ki, "İkinci təhsil" layihəsində 10 nəfər qazi müasir bilik və bacarıqlar toplusu, əmək bazarında ehtiyac olan peşələrə yiyələnir. Onlardan 4-ü DİN-in Daxili Qoşunlarının xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçuları olub. Vüsal Həsənov və Şiraz Həsənov insan resurslarının idarə edilməsi, Teyyub Eyvazov və Orxan Qurbanov İT mühəndisliyi üzrə proqrama cəlb olunublar.

İkinci peşə təhsili alan qazilər proqramı uğurla başa çatdırdıqdan sonra imtahan verməklə beynəlxalq sertifikasiyalı diplom əldə edəcəklər. Onlar kompyuter və ustad dərsləri alıb, İT mühəndisliyi üzrə ixtisas sahibi olacaqlar. Elecə də ikinci peşə təhsilindən əlavə, qazilərimizə "Etika Akademiyası"nda işgüzar etiket, natiqlik, rəsmi yazışma, korporativ etiket üzrə təlim verilir.

Qazilərin peşə təhsili alması ilə yanaşı, onların məşğulluğunun təmin olunması da həll edilib və sevindirici haldır ki, bu məsələdə dövlət qurumları ilə bərabər, həmçinin, ictimai sektor aktivlik göstərir. Artıq bir neçə iri ticarət mərkəzi, mehdud məsuliyyətli cəmiyyət onları işlə təmin edəcəklərini bildiriblər.

**DİN-in Mətbuat xidməti**

4_Layout 1 30.03.2022 9:53 Page 1



# YÜKSƏK DÖYÜŞ HAZIRLIĞINA, SAYIQLIĞINA GÖRƏ FƏRQLƏNƏN BÖLÜK



99713 saylı hərbi hissənin Döyüş Bayrağının, avtomobil və zirehli texnikalar saxlanılan parkının, anbarlarının mühafizə və müdafiəsi komendant bölüyü tərəfindən təmin olunur. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan bölmənin şəxsi heyəti daim ayıq-sayıqlığı və əzmkarlığı ilə fərqlənir. Şəxsi heyət yüksək döyüş hazırlığı və nümunəvi hərbi intizam nümayiş etdirir.

Hərbi hissənin mühafizə və müdafiəsini təşkil edən qarovulun üzərinə böyük məsuliyyət düşür. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçularda bir sıra vacib xüsusiyyətlərə diqqət yetirilir. Hərbi qulluqçuların sağlamlığını, mənəvi-psixoloji durumunu əsas şərt kimi dəyərləndirən bölük komandiri baş leytenant Tural Nəsirli digər lazımi keyfiyyətlərin keçirilən nəzəri məşğələlər və praktiki təlimlər zamanı aşılandığını söylədi. Keçirilən məşğələlərin şəxsi heyətin bilik və bacarıqlarının artırılmasına təkan verdiyini nəzərimizə çatdırdı.

Xidmətə cəlb edilməzdən əvvəl müvafiq plana əsasən, bölük komandiri və onun müavinləri tərəfindən hərbi qulluqçularla təlimat keçilir, müvafiq nizamnamənin maddələri onlara çatdırılır: "Ümumiyyətlə, xidmətə cəlb edilənədək hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Həmçinin, tərbiyə bölməsinin təlimatçı-psixoloqu kapitan Cəmilə Ələkbərova da xidmətə cəlb olunan şəxsi heyətlə fərdi qaydada söhbət aparır. Komendant bölüyündə postların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, eləcə də asudə vaxtın səmərəli təşkili - müxtəlif növ ədəbiyyatların, dövri mətbuatın mütaliəsi, stolüstü oyunların oynanılması da diqqət mərkəzində saxlanılır."




Bölük komandiri hərbi hissədə qarovul rəisləri və onların köməkçiləri ilə keçirilən metodiki-təlim toplanışlarının da daim nəzarətdə saxlanıldığını söylədi. Metodiki-təlim toplanışının keçirilməsi hərbi hissədə ezamiyyətdə olduğum günə təsadüf etdiyindən orada iştirak etdim. Məşğələ rəhbəri, hərbi hissənin qərargahında kimya və mühəndis xidmətinin rəisi kapitan Tural Qurbanovla söhbət zamanı məlum oldu ki, toplanışın keçirilməsinin məqsədi komendant bölüyündə xidmətin keyfiyyətli şəkildə təmini, döyüş hazırlığının və postların mühafizəsi zamanı şəxsi heyətin ayıq-sayıqlığının artırılmasıdır.

Komendant bölüyündə xidmətin təşkilində, hərbi qulluqçuların xidmətə hazırlanmasında, qarovulun yoxlanılmasında bölük komandirinin müavini baş leytenant Samit Piriyevin yaxından iştirak etdiyini deyən baş leytenant T.Nəsirli onun bacarıqlı və çalışqan zabit olduğunu bildirdi.

Komandir onu da əlavə etdi ki, şəxsi heyətlə mütəmadi olaraq təşkil edilən məşğələlərin nəticəsi olaraq komendant bölüyü ötən ilin xidməti-döyüş fəaliyyətinin və hərbi intizamın yekunlarına görə əsgəri bölüklər



arasında birincilik qazanıb: "Bu uğur bütün şəxsi heyətin sayıqlığının nəticəsi kimi hər birimizi sevindirir və bundan sonra da xidməti fəaliyyətimizdə müsbət tərəfdən fərqlənməyimizi stimullaşdırır".

**baş leytenant Nigar Ağayeva**

# HƏRBİ HİSSƏNİN LAYİQLİ XİDMƏTİLƏ SEÇİLƏN BÖLMƏSİ



Daxili Qoşunların 25031 saylı hərbi hissəsinin nümunəvi bölmələrindən olan qərargahın məxfi hissəsi öz fəaliyyətini Daxili İşlər nazirinin və Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanının müvafiq əmr və göstərişlərinin tələbləri əsasında təşkil edir.

Qərargahda məxfi hissənin rəisi baş çavuş Nəriman Tahirov hərbi hissə komandanlığı tərəfindən nizam-intizamlı, savadlı və bacarıqlı hərbi qulluqçu kimi xarakterizə olunur. O, 2005-ci ilin iyun ayından Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət edir. 2005-2016-ci illərdə hərbi hissədə müxtəlif vəzifələrdə fəaliyyət göstərib. 2016-cı ilin oktyabr ayından bu günə kimi məxfi hissə rəisidir.

Baş çavuş N.Tahirov bildirdi ki, məxfi hissə rəisi kimi o, hərbi hissədə dövlət və hərbi sirrin qorunmasına, məxfi sənədlərin qorunub saxlanılmasına, icraçılar tərəfindən vaxtlı-vaxtında qaytarılmasına cavabdehlik daşıyır. Sənədlərlə bərabər, möhür və ştampların qeydiyyatının aparılması, onlardan düzgün istifadə olunması və qorunmasına nəzarət etmək də onun vəzifələridir.

Hərbi qulluqçu əlavə etdi ki, daxil olan məxfi sənədlər barədə gündəlik olaraq hərbi hissə komandirinə və komandir müavini-qərargah rəisinə məruzə olunur.

Qərargahda məxfi hissə üzrə kargüzar gizir Günel Bədəlova da layiqli xidməti ilə fərqlənir. O, 2019-cu ildən Daxili Qoşunların sıralarındadır. Vəzifələrini vicdanla yerinə yetirir, məxfi kargüzarlığın aparılmasına dair əmr, sərəncam və müvafiq təlimatların tələblərini bilir, gündəlik fəaliyyətində onlara əməl edir. Həmçinin, daxil olan məxfi sənədlərin tərtibatı yoxlanılaraq qəbul olunur, sənədlərin uçotu jurnalında qeydiyyatdan keçirilməsi və aidiyyəti üzrə icraçılara çatdırılması təmin edilir. Məxfi hissəyə qaytarılan sənədlər isə işlərə tikilir.

Bir sözlə, məxfi hissə qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirir.

**kapitan Xədicə Hacızadə**

# NƏQLİYYAT VASİTƏLƏRİNİN SAZLIĞI, SÜRÜCÜLƏRİN PEŞƏKARLIĞININ ARTIRILMASI DİQQƏTDƏ SAXLANILIR

Hərbi hissələrdə döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında və qoyulan tapşırıqların uğurla yerinə yetirilməsində xüsusi rolu olan bölmələrdən biri də avtomobil bölüyüdür. Şəxsi heyətin, habelə xüsusi yüklərin dislokasiya yerinə vaxtlı-vaxtında çatdırılmasında 17072 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun təminat bölüyünün avtomobil taqımının şəxsi heyəti qarşısına qoyulan tapşırıqları dəqiqliklə və bacarıqla yerinə yetirir. Belə ki, nəqliyyat vasitələrinin sazlığı, sürücülərin peşəkarlığının artırılması taqım komandiri leytenant Asim Əhmədov tərəfindən hər zaman diqqətdə saxlanılır. Avtomobil və zirehli texnika xidmətinin rəisi mayor Seymur Qarayev də leytenant A.Əhmədovun xidməti fəaliyyətini müsbət qiymətləndirdi, onun gənc olmasına baxmayaraq, öz üzərində çalışdığını söylədi.

Leytenant A.Əhmədov bildirdi ki, hər səhər yerbəyer mərasimindən sonra ərazidə maşınların saxlanc yerləri nəzərdən keçirilir. Sürücülərə gün ərzində təhkim olunmuş avtomobil və zirehli texnikalara texniki qulluğun göstərilməsi barədə müvafiq fərdi tapşırıqlar verilir. Hər bir avtomobil xəttə çıxmazdan əvvəl parkın texniki nəzarət məntəqəsində maşın rəhbərinin, sürücünün sənədlərinin mövcudluğu, yol vərəqəsində müvafiq qeydlərin aparılması, eləcə də nəqliyyat vasitələrinin texniki vəziyyəti yoxlanılır, park növbətçisi tərəfindən xəttə çıxılması üçün icazə verilir. Bu zaman maşın rəhbəri və sürücü yol hərəkəti qaydalarına ciddi riayət etmələri barədə təlimatlandırılır. Xətdən qayıdan nəqliyyat vasitəsi park növbətçisinə təqdim olunduqda bir daha vəziyyəti yoxlanılır, avtomobil yanacaqdoldurma məntəqəsindən keçirilərək, yuyulub saxlancda saxlanılır.



Taqım komandiri onu da vurğuladı ki, gündəlik olaraq park xidmətinin təşkil olunub aparılmasına və nəqliyyat vasitələrinə texniki qulluğun göstərilməsinə nəzarət edilir, təhlükəsizlik qaydaları fərdi olaraq çatdırılır. Görülən gündəlik işlərdən başqa, nəqliyyat vasitələrinə ildə iki dəfə - yay və qış mövsümlərində texniki qulluq göstərilir. Bu zaman avtomobillərdə təmir işləri aparılır, xarici görünüşləri qaydaya salınır. Avtomobillər sürücü alətləri ilə tam təmin edilir.

Həmçinin, ildə bir dəfə Daxili Qoşunların Baş İdarəsinin Maddi-texiki təminat İdarəsində avtomobil və zirehli texnika şöbəsinin zabitləri tərəfindən hərbi hissəyə təhkim olunmuş avtomobillərə illik texniki baxış keçirilir. Baxış zamanı nəqliyyat vasitələrinin texniki vəziyyəti, qorunub saxlanılması, texniki qulluğun, istismarın düzgün təşkili, vəzifəli şəxslər tərəfindən texniki baxış normalarının yerinə yetirilməsi, yanacaq-sürtkü materiallarının, ehtiyat hissələrin hesabatı, maddi-texniki vasitələrin sərfi qaydalarının icrası yoxlanılır.

Yol-nəqliyyat hadisələrinin qarşısının alınması Daxili Qoşunlar komandanlığının ən çox diqqət yetirdiyi məsələlərdən biri olduğu üçün həm sürücülər, həm də fərdi avtomobil sahibləri olan hərbi qulluqçularla nəqliyyat vasitələrinin istismarı, yol hərəkəti qaydaları mövzularında məşğələlər keçirilir.

Leytenant A.Əhmədov məşğələlər zamanı xüsusilə fərqlənən, vəzifə borclarının icrasına vicdanla yanaşan, hər zaman öz bilik, bacarıqlarını təkmilləşdirən nümunəvi hərbi qulluqçulardan baş çavuş İlqar Piriyevin, əsgərlər Məhəmməd Bağırov və Elşad Kosayevin adlarını qeyd etdi.

**kapitan Xədicə Hacızadə**

*İdman*

# ALİ HƏRBİ MƏKTƏB CÜDO ÜZRƏ YARIŞIN QALİBİ OLUB

"2022-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"na və Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanının müvafiq əmrinə əsasən, martın 5-də Daxili Qoşunların Ali Hərbi Məktəbində qoşunların birinciliyi uğrunda cüdo üzrə yarış keçirilib. Yarışda Ali Hərbi Məktəbdən, 99713, 67987, 16075, 16076 və 25031 saylı hərbi hissələrdən 6 komanda olmaqla, 42 nəfər hərbi qulluqçu iştirak edib.

Şəxsi və komanda birinciliyi uğrunda yarışın nəticələri aşağıdakı kimi olub:




**60 kq çəki dərəcəsində**

I yer - kursant Elvin Rəhimov (Ali Hərbi Məktəb);

II yer - kursant İsmayıl İbadov (Ali Hərbi Məktəb);

III yer - kursant Amil Məmmədov (Ali Hərbi Məktəb).

**66 kq çəki dərəcəsində**

I yer - kursant Cavid İsmayılov (Ali Hərbi Məktəb);

II yer - kursant Rizvan Sultanov (Ali Hərbi Məktəb);

III yer - MAXE əsgər Yusif Qüdrətov (99713 saylı hərbi hissə).

**73 kq çəki dərəcəsində**

I yer - kursant Murad Əhmədli (Ali Hərbi Məktəb);

II yer - baş əsgər İmam Hacıyev (16076 saylı hərbi hissə);

III yer - əsgər Rəşad Cavadov (16076 saylı hərbi hissə).

**81 kq çəki dərəcəsində**

I yer - MAXE əsgər Oruc Mustafayev (67987 saylı hərbi hissə);

II yer - kursant İbad Allahquluzadə (Ali Hərbi Məktəb);

III yer - MAXE çavuş Kənan Mirzəzadə (67987 saylı hərbi hissə).

**90 kq çəki dərəcəsində**

I yer - MAXE çavuş Sadiq İsmayıllı (16075 saylı hərbi hissə);

II yer - MAXE çavuş Tahir Əmraslanov (99713 saylı hərbi hissə);

III yer - MAXE çavuş Ramil Muradxanov (67987 saylı hərbi hissə).

**100 kq çəki dərəcəsində**

I yer - MAXE çavuş Amir Muradxanov (99713 saylı hərbi hissə);

II yer - əsgər Cavid Balayev (16076 saylı hərbi hissə);

III yer - MAXE çavuş Elməddin Nəsibli (67987 saylı hərbi hissə).

Komanda üzrə nəticələrə gəldikdə Ali Hərbi Məktəb 31 xalla 1-ci yerə layiq görülüb, kubok və diplomla mükafatlandırılıb. 99713 saylı hərbi hissə 12 balla 2-ci, 67987 saylı hərbi hissə isə 10 balla 3-cü yeri tutub. Yarışda yüksək nailiyyət əldə edən hərbi qulluqçular hərbi hissə komandirlərinin müvafiq əmrləri ilə mükafatlandırılıblar.

**Mətbuat xidməti**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### İspaniya ABŞ-dan MH-60R helikopterləri alır

ABŞ Dövlət Departamenti İspaniyaya 8 ədəd çoxməqsədli MH-60R "Seahawk" helikopteri və müdafiə təyinatlı məhsulların satışını təsdiqləyib.

"Poliqon" xəbər verir ki, Xarici Hərbi Satış proqramı çərçivəsində həyata keçiriləcək satışın ümumi dəyəri 950 milyon ABŞ dolları təşkil edir.

ABŞ-ın "Lockheed Martin" şirkəti tərəfindən istehsal edilən MH-60R "Seahawk" helikopterləri "Hellfire" raketləri və "Mark 54" sualtı torpedaları ilə təchiz edilib. Maksimum qalxma çəkisi 10,659 kq olan helikopter 6,895 kq ağırlığındadır.



MH-60R "Seahawk" helikopterləri yerüstü və sualtı qayıqlara qarşı döyüş missiyalarını yerinə yetirmək qabiliyyəti ilə yanaşı, axtarış və xilasetmə, o cümlədən, ikinci dərəcəli missiyaları yerinə yetirə bilir.

Qeyd edək ki, ABŞ İspaniya Silahlı Qüvvələrinə daha əvvəl "Seahawk" helikopterlərinin SH-60B modelini satıb. Artıq SH-60B helikopterləri köhnə hesab olunur.

## Allah rəhmət eləsin

12318 saylı hərbi hissənin komandanlığı kapitan Elçin Quliyevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000